İclasda İqtisadi İnkişaf, Əmək və Əhalinin Sosial Müdafiəsi, Mədəniyyət və Turizm nazirliklərinin məsul işçiləri, Avropa İttifaqının Azərbaycan Respublikasında Beynəlxalq Texniki Yardımı Üzrə Koordinasiya Şurasının, Respublika Sahibkarlar Təşkilatı Milli Konfederasiyasının və İsmayıllı rayon İcra Hakimiyyətinin əməkdaşları iştirak ediblər.

Layihənin rəhbəri Nils Kristensen müvafiq sənəd barədə iclas iştirakçılarına ətraflı məlumat verib.

Məlumat üçün bildirək ki, layihənin fəaliyyət planının əsas istiqaməti peşə təhsili və təliminin (PTT) modernləşdirilməsi üçün siyasətin hazırlanması bacarıqlarının, strategiyanın və müvafiq proqramın təkmilləşdirilməsidir. Bu sənədin hazırlanması "Azərbaycan Respublikasında texniki peşə təhsilinin inkişafı üzrə Dövlət Proqramı (2007-2012-ci illər)"na və Təhsil Nazirliyinin 30 iyul 2007-ci il tarixli 940 nömrəli əmrinə əsasən məsləhətləşmələr aparmaqla həyata keçiriləcək.

Qeyd edək ki, layihəyə əsasən turizm sektorunda səriştəyə əsaslanan peşə təliminin həyata keçirilməsi üçün milli, regional və yerli səviyyələrdə səmərəli tərəfdaşlığın qurulması nəzərdə tutulur. Bundan əlavə bütün maraqlı tərəflərin iştirakı ilə turizm sahəsi ilə bağlı peşə və kvalifikasiya standartlarının hazırlanması üzrə işçi qrupunun yaradılması planlaşdırılır. Fəaliyyətə başladığı dövrdən layihənin texniki tərəfdaşı olan Britaniya Şurasının mütəxəssisləri İsmayıllı, Gəncə, Mingəçevir şəhərlərinə səfər edib, yerli və xarici şirkətlərin nümayəndələri ilə görüşlər keçirib.